# Təhsildə Yeni Çağırışlar V Beynəlxalq Forumu keçirilir

**Oktyabrın 4-də ADA Universitetində Təhsildə Yeni Çağırışlar V Beynəlxalq Forumu keçirilir.**




AZƏRTAC xəbər verir ki, beynəlxalq forum Elm və Təhsil Nazirliyi, Dünya Təhsil Forumu və Təhsilin İnkişafı Fondunun tərəfdaşlığı, "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının və ADA Universitetinin təşkilatçılığı ilə keçirilir.

Forumun keçirilməsində məqsəd təhsildə yeni çağırışları müzakirə etmək, ekoloji təhsilə, xüsusilə "yaşıl təhsil" ideyasına diqqəti artırmaq, yeni dövrün təhsil tələblərini nəzərdən keçirərək keyfiyyətin daha da yüksəldilməsinə nail olmaqdır.

"Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilən və COP29 ideyasını özündə ehtiva edən beynəlxalq forum "Daha təhsilli gələcək" devizi ilə baş tutur.

Forumun əsas məruzəçiləri Dünya Təhsil Forumunun direktoru Dominik Savaj ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxerdir.

Dominik Savaj "Məktəblər "yaşıl bacarıqları" effektiv inkişaf etdirmək üçün hansı təşəbbüsləri həyata keçirə bilərlər?", Andreas Şleyxer "Dayanıqlı inkişaf yolunda təhsil" başlıqlı geniş təqdimatla çıxış edəcəklər.

Həmçinin Estoniyada ekoməktəblər üzrə koordinator Maris Məgi "Ekoloji şüurlu şagirdləri necə yetişdirmək olar? Ekoməktəblərdən dərslər", ADA Universitetinin prorektoru Vəfa Kazdal "Təhsildə iştirakçılıq və əməkdaşlıq ekosistemi", pedaqogika üzrə tanınmış alim, təhsil tədqiqatçısı və alim Özgür Bolatın "Təbiət uşaqların nailiyyətlərinə və xoşbəxtliyinə necə təsir edir?" mövzularında təqdimatlar edəcəklər.

Forum ekoloji savadlılıq və davranış mədəniyyəti, təhsildə "yaşıl çağırışlar" və öhdəliklər, "yaşıl bacarıqlar" strategiyası, təhsilin gələcəyi və ekoloji innovasiyalar, təhsildə liderlik və ekoloji səmərəlilik, "yaşıl öyrənmə" mühiti və müəllim hazırlığı, təhsildə iştirakçılıq və əməkdaşlıq ekosistemi mövzularını əhatə edir.

Beynəlxalq forum çərçivəsində "T-Network" platformasının rəhbəri, təhsilin idarə olunması üzrə doktorant Cəfər Mənsiminin moderatorluğu ilə "Təhsildə hansı "yaşıl çağırışlar" var və bu çağırışlar hansı öhdəliklər yaradır?", "Təbiətlə dost olan şagirdlərin yetişdirilməsi üçün hansı addımların atılmasına ehtiyac var?", "Ekoloji savadlılıq və davranış mədəniyyətinin inkişafına təkan vermək üçün təhsildə hansı ənənəvi yanaşmaları yeni yanaşmalarla əvəz etmək lazımdır?", "Yaşıl məktəb ideyası mövcud kurikulumlara necə inteqrasiya olunmalıdır?" sualları ətrafında müzakirələr aparılacaq.

Forum "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin "XXI əsrin tələblərinə uyğun təhsil" istiqamətini əsas götürür.

Məlumat üçün bildirək ki, forumun əsas tərəfdaşlarından biri sayılan Dünya Təhsil Forumu təhsil və bacarıqlar nazirlərinin ən böyük illik toplantısıdır. Hər il Londonda keçirilən Dünya Təhsil Forumunda dünya əhalisinin 80 faizindən çoxunu təmsil edən nazirlər və onların baş məsləhətçiləri gələcək təhsil siyasətini müzakirə etmək üçün bir araya gəlirlər.

Azərbaycan.- 2024.- 5 oktyabr (№ 218).- S. 14.